*“Dövlət qeydiyyatına alınmışdır”*
*Azərbaycan Respublikasının*
*Ədliyyə Nazirliyində*
*Qeydiyyat və Notariat baş idarəsinin rəisi*
*İlgar Məmmədov*

*_1155- A10 -562___*
*“28”dekabr 2015-ci i*

*“Təsdiq edilmişdir”*
*Azərbaycan Respublikasının*
*Təhsil Naziri*
*M.C.Cabbarov*

*“18” dekabr 2015-ci il*

# Üzeyir Hacıbəyli adına
# Bakı Musiqi Akademiyasının
# N İ Z A M N A M Ə S İ

Üzeyir Hacıbəyli adına

## Bakı Musiqi Akademiyasının

# NİZAMNAMƏSİ

## 1.ÜMUMI MÜDDƏALAR

**1.1**. Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası (bundan sonra BMA) öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununu, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərancamlarını, Azərbaycan Respublikası Təhsil Nazirliyinin əmrlərini, kollegiyasının qərarlarını, Nümunəvi Nizamnaməni və öz Nizamnaməsini rəhbər tutur.

**1.2.** BMA müvafiq səviyyələr üzrə ali təhsil proqramlarını həyata keçirən hüquqi şəxs statusuna malik təhsil müəssəsidir.

**1.3.** BMA üçün maliyyə ili yanvarın 1-dən başlayıb dekabrın 31-də başa çatır.

**1.4.** BMA-da siyasi partiyaların və dini qurumların strukturlarının yaradılmasına və fəalyyətinə yol verilmir.

**1.5.** BMA-da işə qəbulda, vəzifələrə təyin olunmada və ya seçilmədə, əməyin stimullaşdırılmasında, akademiyaya qəbul olunmada, təhsilalanların təqaüdlə təmin edilməsində, ixtisasların seçilməsində, biliyin qiymətləndirilməsində, məzunların işlə təmin edilməsində, ali təhsilin növbəti səviyyəsində təhsillərini davam etdirilməsində, ixtisasın artırılmasında və təhsil sahəsində digər məsələlərdə kişilər və qadınlar üçün bərabər imkanlar yaradılır.

**1.6.** BMA-da təhsilalanların geyimi Elmi Şuranın qərarı ilə müəyyən olunur.

**1.7.** BMA-nın nizamnaməsi Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən təsdiq edilir.BMA-nın Nizamnaməsində edilən dəyişikliklər onun Elmi Şurası tərəfindən qəbul olunur və Azərbacan Təhsil Nazirliyi tərəfindən təsdiq edilir.

**1.8.** BMA-nın təşkilati-hüquqi forması qeyri-kommersiya müəssisəsi, mülkiyyət növü - dövlət, statusu isə ali təhsil müəssisəsidir.

**1.9.** BMA musiqi sahəsi üzrə ali və əlavə təhsil proqramlarını həyata keçirən tədbiqi elmi tədqiqatlar aparan ali təhsil müəssisəsidir. BMA-sı yenidən təşkil olunarsa , onun adında da dəyişiklik aparılması "Dövlət büdcəsindən maliyyələşən təlim-tərbiyə və təhsil müəssisələrinin yaradılması, genişləndirilməsi, yenidən təşkili və ləğv edilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il

14 may tarixli 67 nömrəli qərarına uyğun olaraq, Azərbaycan Respublikasının Təhsil Nazirliyinin vəsatəti əsasında Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən həyata keçirilir.

**1.10.** BMA-nın fəaliyyətinə xüsusi razılığın verilməsi (lisenziyalaşdırılması) və akkredetasiyası qanunvericiliyə uyğun olaraq həyata keçirilir.

**1.11.** BMA-nın fəaliyyətinə xüsusi razılıq (lisenziya) Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən müddətsiz verilir.

**1.12.**BMA-nın akkreditasiyası "Təhsil müəssisələrinin akkreditasiyası Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 28 sentyabr tarixli 167 nömrəli qərarına əsasən Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən həyata keçirilir.

**1.13.** BMA-sı ali təhsilin inkişafı və təkmilləşdirilməsi məqsədi ilə müxtəlif ali məktəblərlə sazişlər bağlamaq, elm,istehsal,və digər müəssisə, təşkilat və idarələrin iştirak etdiyi tədris-tərbiyə komplekslərində birləşmək, tədris elmi-istehsal birlikləri(assosiasiyaları) yaratmaq, ərazi tədris istehsal birlikləri və assosiasiyalarına daxil olmaq hüququna malikdir.

**1.14.** BMA-nın strukturu onun Elmi Şurası tərəfindən müəyyənləşdirilir və rektor tərəfindən təsdiq edilir. BMA-nın struktur bölmələrinin fəaliyyət dairəsi və funksiyaları bu Nizamnamə,eləcə də onların müvafiq qaydada təsdiq olunmuş əsasnamələri ilə tənzimlənir.

BMA-nın struktur bölmələri tədris prosesi və elmi-tədqiqat işlərinin təşkilində,onun həyata keçirilməsində bilavasitə iştirak edir,Akademiynın Elmi şurasının qərarlarını,rektorun əmr və sərəncamlarını yerinə yetirirlər.

Struktur bölmələrinin rəhbərləri (filiallar istisna olmaqla) BMA-nın rektoru tərəfindən təyin olunurlar.

**1.15.** BMA-da təhsil dövlət hesabına və ödənişli əsaslarla həyata keçirilir.

**1.16.** BMA təhsil, tərbiyə və elm mərkəzi kimi, nizamnaməsinə uyğun aşağıdakı vəzifələri yerinə yetirir:

- hər bir şəxsin intellektual, mədəni və mənəvi inkişafı, ali təhsilalma tələblərinin ödənilməsi;
- təlim-tərbiyə prosesinin yüksək səviyyədə təşkil edilməsi;
- elmi araşdırmaların aparılması;
- yüksəkixtisaslı elmi-pedagoji kadrların hazırlanması;
- ixtisasartırma və kadrların yenidən hazırlanmasının təmin edilməsi;
- qanunvericiliklə müəyyən edilmiş qaydada təhsil, mədəni-maarif,nəşriyyat,müalicə-diaqnostika,maliyyə-iqtisad,təsərrüfat,elmi-istehsalat sahələri üzrə kommersiya fəaliyyəti ilə məşğul olunması;
- beynəlxalq fəaliyyətin və xarici əlaqələrin təmin edilməsi.

Həmin vəzifələri yerinə yetirmək üçün BMA :
- Dövlət təhsil standartlarına və ayrı-ayrı ixtisaslar (ixtisaslaşmalar) üzrə təhsil proqramlarına uyğun tədris prosesinin təşkilinə aid olan təhsil sənədlərini və təhsil proqaramını səlahiyyətləri çərçivəsində müstəqil hazırlayır;
- tədris prosesini təşkil edir və onun monitorinqini həyata keçirir;
- təlim prosesində innovativ texnologiyalardan və yeni təlim üsullarından istifadə edir;
- elmi, ixtisaslaşdırılmış və dissertasiya şuralarının işini təşkil edir və həyata keçirir;
- profilinə uyğun elmi tədqiqat işlərini həyata keçirir və elmi-metodik sənədlər hazırlayır;
- elmi-praktik konfranslar, müsabiqələr, seminarlar, simpoziumlar, olimpiadalar,müsabiqələr və s. təşkil edir;
- elmi əlaqələr yaradır, təhsil və elmi-texniki əməkdaşlıq haqqında saziş və müqavilələr bağlayır, təhsillə bağlı layihələrdə, o cümlədən beynəlxalq layihələrdə iştirak edir;
- elmi əsərləri, dərslik, dərs vəsaiti, tədris və tədris-metodik ədəbiyyatları hazırlayır və nəşr edir;
- təhsilin keyfiyyət səviyyəsini ölkədə qəbul olunan təhsil standartları əsasında beynəlxalq və ümumavropa Bolonya təhsil sisteminin prinsiplərinin tətbiqi ilə bağlı müasir informasiya və elmi-metodik təminatını, BMA-nın xüsusi veb-portalını, qlobal kompyüter şəbəkəsi üçün informasiya resurslarını yaradır;
- elmi əsərləri, dərslik, dərs vəsaiti, tədris və tədris-metodik ədəbiyyatlar hazırlayır və nəşr edir;
-tələbələrə və müəllim-professor heyətinə idman, sağlamlıq,iaşə və məişət xidmətləri təşkil edir və göstərir;
- təsərrüfat və maliyyə fəaliyyətini həyata keçirir;
- maddi-texniki və tədris bazasının möhkəmləndirilməsi və genişləndirilməsi istiqamətində işlər görür;
- müəllim-tələbə mübadiləsini və onların xaricdə təcrübə keçmələri üçün beynəlxalq əlaqələr yaradır.

**1.17.** BMA-da mütəxəssislər və elmi-pedaqoji kadr hazırlığı üç səviyyədən ibarətdir:
- bakalavriat
- magistratura
- doktorantura.

Ali təhsil pilləsində aşağıdakı təhsilalma formaları müəyyən edilir:
- əyani
- qiyabi

**1.18.** Bakalavriat təhsil səviyyəsində tam orta təhsil və orta ixtisas təhsili bazasında musiqi ixtisasları üzrə geniş profilli, ali təhsilli mütəxəssis hazırlanır.

**1.19.** Bakalavriat təhsili başa çatmış ali təhsildir.

Bakalavriat səviyyəsində əyani forma üzrə təhsilin müddəti 4 ildir (qiyabi – 5 il).

Bakalavriatı bitirən məzunlara "bakalavr" ali peşə-ixtisas dərəcəsi verilir.

Bakalavriat təhsili almış məzun, elmi-tədqiqat və ali təhsil müəssisələrində elmi-pedaqoji fəaliyyət istisna olmaqla, bütün digər sahələrdə, o cümlədən orta və orta ixtisas musiqi məktəblərində, ifaçı kollektivlərində, teatrlar və konsert təşkilatları və birliklərində əmək fəaliyyəti ilə məşğul ola bilər.

Bakalavriat səviyyəsini bitirən şəxslər təhsillərini magistratura səviyyəsində davam etdirə bilərlər.

BMA-da bakalavriat təhsilinin məzmunu və təşkili Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 24 iyun tarixli 117 nömrəli qərarı ilə təsdiq edilmiş "Bakalavriat təhsilinin məzmunu və təşkili Qaydaları"na uyğun olaraq məyyən edilir.

**1.20.** Magistratura təhsilin ikinci səviyyəsi olmaqla, ixtisaslaşmalar üzrə hər hansı ixtisas sahəsinin elmi tədqiqat və ya peşəkar məqsədlər üçün daha dərindən öyrənilməsini nəzərdə tutur.

BMA-da magistratura səviyyəsində əyani forma üzrə təhsilin müddəti 2 ildir.

Magistratura səviyyəsini bitirən şəxslərə "magistr" ali elmi-ixtisas dərəcəsi verilir. BMA magistraturasını bitirmiş şəxslərə peşəkar fəaliyyətlə, elmi tədqiqat və elmi-pedaqoji işlərlə məşğul olmaq hüququ verilir. BMA magistraturasını bitirənlər bütün sahələrdə, o cümlədən ali məktəblərin bakalavr səviyyəsində, habelə orta ixtisas musiqi məktəblərində, kolleclərdə, akademiya və konservatoriyalarda, elmi-tədqiqat institutlarında elmi-pedaqoji fəaliyyət göstərə bilərlər.

BMA-da magistratura təhsilinin təşkili və "magistr" dərəcəsinin verilməsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 12 may tarixli 88 nömrəli qərarı ilə təsdiq edilmiş "Magistratura təhsilinin məzmunu, təşkili və "magistr" dərəcələrinin verilməsi "Qaydaları"na əsasən müəyyən edilmişdir.

Magistratura səviyyəsini bitirən şəxslər təhsillərini doktoranturada davam etdirə bilərlər.

**1.21.** BMA-da ali təhsilin üçüncü səviyyəsi doktoranturadır. Doktorantura ali təhsilin ən yüksək səviyyəsi olmaqla, elmi və elmi-pedaqoji kadrların hazırlanmasını, ixtisas və elmi dərəcələrin yüksəldilməsini təmin edir.

BMA-da doktoranturaya qəbul Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 1 iyul tarixli 129 nömrəli qərarı ilə təsdiq edilmiş "Doktoranturaların yaradılması və doktoranturaya qəbul "Qaydaları"na əsasən həyata keçirilir.

BMA-da sənətşünaslıq üzrə fəlsəfə doktoru,pedaqogika üzrə fəlsəfə doktoru və sənətşünaslıq üzrə elmlər doktoru,pedaqogika üzrə elmlər doktoru elmi dərəcələri müəyyən edilir.

**1.22.** BMA-da çalışan elmi-pedaqoji kadrlara elmi dərəcələrin verilməsi dissertantlıq yolu ilə də reallaşdırılır. Dissertantların təhkim olunması və elmi dərəcələrin verilməsi qaydaları Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilir.
BMA-da elmi və pedaqoji fəaliyyət sahəsində əldə etdikləri nəticələrə görə dosent və professor elmi adları verilir. Elmi adların verilməsi Azərbaycan Respublikasının Ali Attestasiya Komissiyası tərəfindən müəyyən edilmiş qaydalara əsasən həyata keçirilir.

**1.23.** BMA ali təhsilin müvafiq səviyyəsini bitirmək haqqında dövlət sənədi olan vətəndaşların əlavə təhsil almasını təşkil edə bilər. Əlavə təhsil hər bir vətəndaşın fasiləsiz təhsil almaq imkanını təmin edir və insan potensialının inkişafı, kadrların intellektual və peşə hazırlığı səviyyəsinin yüksəldilməsi və təkmilləşdirilməsi, onların daim dəyişən və yeniləşən əmək şəraitinə uyğunlaşdırılması, yaşlı vətəndaşların ölkənin sosial, iqtisadi, siyasi və mədəni həyatında fəal və səmərəli iştirakının təmin edilməsi vəzifələrini daşıyır. BMA-da əlavə təhsil aşağıdakı istiqamətləri əhatə edir:
- ixtisasartırma;
- stajkeçmə və kadrların təkmilləşdirilməsi;
- təkrar ali təhsil.

Hər bir ali təhsilli Azərbaycan vətəndaşı BMA-da təkrar ali təhsil ala bilər.
BMA-da əlavə ali təhsilin təşkili "Əlavə təhsilin məzmunu, təşkili və əlavə təhsilin hər hansı istiqaməti üzrə təhsil almış şəxslərə müvafiq sənədin verilməsi Qaydasi"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 6 sentyabr tarixli 163 nömrəli qərarına əsasən müəyyənləşdirilir və bu təhsil ödənişli əsaslarla heyata keçirilir.

**1.24.** BMA-da tədris ali təhsilin ayrı-ayrı səviyyələri üzrə təhsilin məzmunu və mənimsəmə qaydalarını müəyyən edən təhsil proqramları (kurikulumları) üzrə həyata keçrilir.

**1.25.** BMA-nın hüquqi ünvanı: Bakı şəhəri, AZ 1000, Şəmsi Bədəlbəyli küçəsi, 98.

## 2. BAKI MUSİQİ AKADEMİYASINA TƏLƏBƏ QƏBULU

**2.1.** BMA-ya bakalavr səviyyəsinə tam orta təhsili olan və orta ixtisas təhsili olan şəxslər, magistratura səviyyəsinə isə bakalavr səviyyəsini bitirən şəxslər ixtisasın sərbəst seçimi əsasında, müsabiqə yolu ilə, müəyyən edilmiş qaydada qəbul oluna bilərlər.

**2.2.** BMA-ya tələbə qəbulu biliyin qiymətləndirilməsi üzrə keçirilən imtahanlarda abituriyentlərin əldə etdikləri nəticələrə əsasən Azərbaycan Respublikasının Tələbə Qəbulu üzrə Dövlət Komissiyası tərəfindən həyata keçirilir.

**2.3.** BMA-ya bakalavriat, magistratura, doktorantura səviyyələrinə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin qəbulu Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr əsasında, habelə BMA ilə əcnəbi və ya vətəndaşlığı olmayan şəxs arasında bağlanan müqaviləyə uyğun olaraq ödənişli əsaslarla həyata keçirilir.

**2.4.** BMA-na tələbə qəbulu planı dövlət, ayrı-ayrı müəssisə və təşkilatların sifarişləri əsasında, BMA-nın imkanları nəzərə alınmaqla Təhsil Nazirliyinin təklifləri əsasında Azərbaycan Respublikasının Prezidenti yanında Təhsil üzrə Komissiya tərəfindən müəyyyənləşdirilir.

**2.5.** Hər bir təhsilalan, valideyn və digər qanuni nümayəndə BMA-da tədris prosesini tənzimləyən aşağıdakı hüquqi sənədlərlə tanış ola bilər:
- BMA-nın nizamnaməsi;
- təhsil sahəsində fəaliyyət üçün xüsusi razılıq (lisenziya);
- dövlət akkredetasiyası haqqında sənəd.

**2.6.** BMA-ya təkrar ali təhsil almaq istəyənlərin və hazırlıq kurslarına vətəndaşların qəbulu Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən müəyyən edilmiş qaydada həyata keçirilir.

## 3. BAKI MUSİQİ AKADEMİYASININ TƏDRİS FƏALİYYƏTİ

**3.1.** Bakı Musiqi Akademiyasında tədris Azərbaycan və rus dillərində aparılır.

**3.2.** BMA-da ali təhsilin səviyyələri üzrə aşağıdakı təhsil proqaramları (kurikulumları) həyata keçirilir:
- bakalavriat;
- magistratura;
- doktorantura;
- əlavə təhsil.

Beynəlxalq təhsil proqramları üzrə mütəxəssis hazırlığı dövlətlərarası müqavilələrə, müvafiq qanunvericiliyə və BMA-nın nizamnaməsinə əsasən tənzimlənir.

**3.3.** Ali təhsilin proqramlarına və onların həyata keçirilməsinə qoyulan ümumi tələblər Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 23 aprel tarixli 75 nömrəli qərarı ilə təsdiq edilmiş "Ali təhsil pilləsinin dövlət standartı və proqramı " (bundan sonra-dövlət təhsil standartı) ilə müəyyənləşdirilir.

Ali ixtisas təhsilinin əsas peşə təhsil proqramlarına aşağıdakı məcburi fənlər bloku daxil olunur:

Bakalavriat səviyyəsində:
- humanitar fənlər;
- ixtisasın peşə hazırlığı fənləri.

Humanitar fənn bölməsi sosial fəaliyyətin müxtəlif sahələrində mövcud problemləri və prosesləri araşdırmağı təmin etməlidir.

İxtisasın peşə hazırlığı fənləri ixtisasa dair standart və qeyri-standart məsələləri həll etmək üçün lazımı bilik,bacarıq və vərdişlərin öyrənilməsini təmin etməlidir.

Ümumi auditoriya saatlarının 15-20 faizi humanitar fənlərin,80-85 faizi isə peşə hazırlığını təmin edən fənlərin tədrisinə ayrılır.

Bakalavr səviyyəsində təkrar ali təhsil alanlar üçün ixtisaslar üzrə təhsil proqramlarına uyğun qısaldılmış proqramlar da tədbiq edilə bilər.Qısaldılmış təhsil proqramlarına yalnız ixtisasın peşə hazırlığı fənləri daxil edilir.Bu proqramlar üzrə təhsil qısaldılmış müddətdə başa çatdırılır.

Magistratura səviyyəsində:

ixtisaslar üzrə təhsil proqramları təhsil və elmi tədqiqat hissələrindən ibarətdir. Bu zaman təhsil hissəsinə ayrılan saatların həcmi 40-50 faiz təşkil edir.

Təhsil hissəsində aşağıdakı fənn bölmələri nəzərdə tutulur:

- humanitar fənlər;
- ixtisaslaşma fənləri.

Bu bölmələrə daxil olan fənlərin tədrisi zamanı magistrlara müvafiq elm sahəsində elmi tədqiqat işlərini aparmaq və təşkil etmək,müasir informasiya texnologiyalarından istifadə etmək,ali təhsil müəssisələrində pedaqoji fəaliyyətlə məşğul olmaq,idarəetmə sahəsində fəaliyyət göstərmək vərdişləri aşılanır.

Bu təhsil proqramları üzrə humanitar fənlər bölməsinə ümumi auditoriya saatlarının 25-30 faizi,ixtisalaşma fənlərinə isə 70 faizi ayrılır.

Humanitar fənn bölməsinə məcburi fənlər kimi ”Xarici dil”,Ali məktəb pedaqogikası” və “Psixologiya” fənləri daxildir.

İxtisaslar üzrə bakalavr və magistr proqramlarının bütün fənn bölmələrinə seçmə fənlər daxildir.Hər iki proqramda seçmə fənlərə ayrılan saatların həcmi ümumi saat həcminin 25-30 faizini təşkil edir.

**3.4.** Ali təhsil pilləsinin ayrı-ayrı ixtisasları (ixtisaslaşmaları) üzrə təhsil proqramları müvafiq tədris-metodiki sənədlər əsasında həyata keçirilir.

Bu sənədlərin formaları səlahiyyətləri çərçivəsində Azərbaycan Respublikasının Təhsil Nazirliyi və BMA tərəfindən müəyyənləşdirilir.

**3.5.**İxtisaslar üzrə təhsil proqramlarında normativ təhsil müddətləri dövlət təhsil standartı ilə müəyyən edilir.

**3.6.** BMA-da ixtisaslar üzrə tədris prosesinin təşkili akademiyanın rəhbəri tərəfindən təsdiq edilmiş tədris planı əsasında həyata keçirilir.

BMA-da bakalavr səviyyəsində tələbələrin həftəlik maksimal tədris yükünün həcmi 45 saatdır (auditoriya və auditoriyadan kənar məşğələlər nəzərə alınmaqla).
Auditoriya dərsləri həftədə bakalavriat səviyyəsində 30 saatdan, magistratura səviyyəsində isə 16 saatdan çox olmamalıdır.
Tədris planında tədris işinin həcmi kredit vahidləri ilə müəyyənləşdirilir və bir kredit 30 saata bərabərdir.
BMA-da kredit sistemi ilə tədrisin təşkili Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş qaydada həyata keçirilir.
Əyani forma üzrə məcburi auditoriya dərslərinin maksimal həcmi ayrı-ayrı ixtisaslar üzrə təhsil proqramları ilə müəyyənləşdirilir.
Qiyabi forma üzrə isə tələbələrin auditoriya dərslərinin həcmi ildə bakalavriat səviyyəsində 180-240 saata qədər nəzərdə tutulur.
Hər tədris ilində təlim müddəti sentyabrın 15-dən başlanır və ixtisas üzrə tədris planına müvafiq olaraq yekunlaşır.
Tədris ili iki semestrdən (payız və yaz) ibarətdir.
Bundan əlavə yay tətili müddətində 6 (altı) həftədən çox olmayaraq yay semestrı də təşkil oluna bilər.
Tədris ilinin müddəti 40 həftədir. Hər semestr 20 həftədən (5 həftə imtahan sessiyası) ibarətdir.
Bundan əlavə yay tətili müddətində 6(altı) həftədən ibarət çox olmayaraq yay semestri də təşkil oluna bilər.
Bütün təlim müddətində istehsalat(pedaqoji və tədris) təcrübəsi üçün nəzərdə tutulan müddət bakalavr və magistr səviyyəsində isə 8 həftədir.
Hər tədris ilində tətil müddəti 12 həftədir (o cümlədən qış tətili 2 həftədən az olmayaraq).
BMA-da dərs növlərinə mühazirə, seminar, nəzəri, praktik məşğələlər, fərdi dərslər, elmi tədqiqat işləri, yoxlama işləri, sərbəst kurs işi və s. daxildir.
Akademik saat – 45 dəqiqədir. Akademik saatlararası fasilə 5 dəqiqədən az olmamalıdır.
BMA-da bakalavriat və magistratura səviyyələrinin proqramları təhsilalanların dövlət attestasiyası ilə yekunlaşır. Dövlət attestasiyası bütün təhsilalanlar üçün məcburidir, onun hazırlanmasına və təşkilinə ayrılan müddət 6 həftədir. Dövlət Attestasiya Komissiyasının yaradılması və işinin təşkili Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi qaydada həyata keçirilir.
BMA-da təhsilalanların cari, aralıq və dövlət attetasiyası zamanı biliyinin qiymətləndirilməsi çoxballı (100 ballı) sistemlə həyata keçirilir və bu sistemdə A ( əla),B(çox yaxşı),C(yaxşı),D(kafi),E(qənaətbəxş) və F(qeyri-kafi) qiymətləri müəyyənləşdirilir.

Imtahan sessiyalarının təşkili,tələbələrin biliyinin cari və aralıq qiymətləndirilməsi,dövlət attestasiyasının keçirilməsi qaydaları səlahiyyətləri çərçivəsində Azərbaycan Respublikasının Nazirlər Kabineti,Azərbaycan

Respublikasının Təhsil Nazirliyitərəfindən və bu Nizamnamə ilə müəyyənləşdirilir.

**3.7.** BMA-da əyani forma üzrə dövlət hesabına təhsilalanların fəaliyyətini stimullaşdırmaq məqsədi ilə onlara qanunvericilikdə müəyyən edilmiş qaydada təqaüdlər ( o cümlədən adlı təqaüdlər) və yardımlar verilir.

**3.8.** Təhsilalanların bir təhsil proqramından və ya BMA-dan digər ali məktəbə köçürülməsi, xaric edilməsi, akademik məzuniyyət verilməsi və bərpa olunması məsələləri Azərbaycan Rüspublikasının Təhsil Nazirliyi tərəfindən müəyyənləşdirilmiş qaydalarla tənzimlənir.

**3.9.** BMA-nın bakalavriat və magistratura təhsil proqramlarını başa vurmuş və yekun dövlət attestasiyasından keçmiş tələbələrə akademiyanı bitirməsi barədə dövlət nümunəli sənəd (diplom) verilir. Həmin diploma əlavədə təhsilalanlar tərəfindən mənimsənilmiş fənlər, onların kreditlə həcmi və qiymətlər göstərilir.
BMA-nın müvafiq səviyyələrini bu və ya digər səbəbdən başa vurmayan təhsilalanlara Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 21 yanvar tarixli 12 nömrəli qərarı ilə təsdiq edilmiş "Müxtəlif səbəblərdən təhsilin hər hansı pilləsini və səviyyəsini başa vurmayan şəxslərə arayışın verilməsi Qaydası"na uyğun olaraq arayış verilir.

## 4. BAKI MUSİQİ AKADEMİYASININ ELMİ FƏALİYYƏTİ

**4.1.** BMA-da mütəxəssis hazırlığı elmlə təhsilin vəhdəti əsasında həyata keçirilir.

**4.2.** BMA-da elmi fəaliyyət və onun təşkili Təhsil Haqqında Azərbaycan Respublikasının Qanununa, Elm haqqında Qanuna, Azərbaycan Respublikası Nazirlər Kabinetinin, Təhsil Nazirliyinin və Ali Atesstasiya Komissiyasının müvafiq hüquqi-normativ sənədlərinə, qərarlarına, təlimatlarına və bu Nizamnaməyə əsaslanır.

**4.3.** BMA-da elmi araşdırmalar kafedralarda, elmi laboratoriyalarda və Xalq musiqisi kabinetində də aparılır.
- BMA-da 3 elmi laboratoriya fəaliyyət göstərir: «Şifahi ənənəli Azərbaycan musiqisinin və yeni istiqamətlərin tədqiqi», «Qədim musiqi alətlərinin bərpası, təkmilləşdirilməsi və tədqiqi» «Musiqi akustikası». BMA-nın elmi laboratoriyalarının fəaliyyəti elmin təhsillə və tədrislə əlaqələndirilməsi, elmin və istehsalatın əlaqələndirilməsi, yüksək səviyyəli musiqi-elmi kadrların tərbiyəsi, musiqişünaslıq problemləri ilə musiqi-pedaqoji fəaliyyətin əlaqələndirilməsi, musiqişünaslıq elminin inkişafına yönəldilmişdir.
- «Şifahi ənənəli Azərbaycan musiqisinin və yeni istiqamətlərin tədqiqi» laboratoriyasında Azərbaycan musiqi folkloru, aşıq sənəti, muğam sənəti, xalq ifaçılığı tarixi, nəzəri, terminoloji aspektlərdən tədqiq olunur; respublikanın müxtəlif region və bölgələrinə, eləcə də azərbaycanlıların

kompakt yaşadıqları qonşu respublikalara elmi-folklor ekspedisiyaları, Azərbaycan şifahi ənənəli musiqisinin məqsədyönlü şəkildə toplanması, nota, videoya və CD-yə yazılması, sistemləşdirilməsi və qorunması istiqamətində elmi-praktik tədbirlər həyata keçirilir; tədris prosesində istifadə olunması üçün şifahi ənənəli musiqi nümunələrindən ibarət toplular tərtib olunur. «Qədim musiqi alətlərinin bərpası, təkmilləşdirilməsi və tədqiqi» elmi laboratoriyasının əsas məqsədi Azərbaycan qədim musiqi alətlərini elmi-praktik əsaslarla bərpa etmək, olnarı təkmilləşdirmək və müasir musiqi ifaçılığına daxil etməkdən ibarətdir. Laboratoriyada musiqi-orqanoloji tədqiqatlar aparılır, milli musiqi alətlərinin yeni və təkmil növlərinin yaradılması istiqamətində elmi-praktik, əməli fəaliyyət həyata keçirilir. «Musiqi akustikası» elmi laboratoriyasının əsas məqsədi musiqi alətlərinin, xüsusilə Azərbaycanın qədim və müasir xalq çalğı alətlərinin səs yaratma mexanizmlərinin və onların rezonatorlarının akustik xüsusiyyətlərinin, əsas və ümumi tezliklər diapazonunun, əsas tonlar və obertonlar sırası, harmonik komponentlər və səsin tərkibinin, səsin spektral analizinin, amplitud-tezlik və amplitud-zaman xarakteristikalarının, musiqi intervalları və kök sistemlərinin tədqiqi kimi məsələlərdən ibarətdir.

Laboratoriyalarının maliyyə təminatı BMA-nın büdcəsi, qrantlar, özünümaliyyələşdirmə əsasında həyata keçirilə bilər.

- Xalq musiqisi kabineti (XMK) BMA-nın nəzdində fəaliyyət göstərən tədris və elmi-praktik məqsədli qurumdur. XMK-nın fəaliyyətinə və səlahiyyətinə bunlar daxildir: xalq musiqisi irsinin toplanması məqsədilə ekspedisiyaların təşkili; xalq musiqisinin audio və video texnikaları ilə yazıya alınması; toplanılmış materialların notlaşdırılması, sənədləşdirilməsi, kataloqlaşdırılması, sistemlərşdirilməsi və araşdırılması; xalq musiqisinə dair toplanmış musiqi materialının, not materialının, audio və video yazıların qorunub saxlanılması; XMK-nın materiallardan, xalq musiqisi nümunələrindən tədris və elmi məqsədlərlə istifadə olunması; XMK-nın arxivinin yaradılması.

XMK-nın maliyyələşməsi Ü. Hacıbəyli adına BMA-nın büdcəsi hesabınadır.

**4.4.** BMA-nın elmi fəaliyyəti musiqi sənəti ilə bağlı olan elm sahələrinin inkişafına, elmi tədqiqatların nəticələrinin tədris prosesinə tətbiqinə yönəldilir.

**4.5.** Elmi fəaliyyət BMA-nın professor-müəllim heyətinin işinin tərkib hissəsidir. BMA-nın elmi fəaliyyəti ixtisas və peşə istiqamətlərinə, tədris olunan fənlərin proqramlarına və məzmununa, təhsilin və tədrisin müasir tələblərinə uyğun olaraq fakültələrdə və kafedralarda müəllimlər, magistrantlar, doktorantlar, asisstent-stajorlar tərəfindən həyata keçirilir.

BMA-da elmi tədqiqat işlərinin aparılması və təşkili qaydaları Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 21 yanvar tarixli 9 saylı qərarı ilə təsdiq edilmiş «Ali Təhsilin Nümunəvi Nizamnaməsi» və BMA nizamnaməsi ilə müəyyənləşdirilir.

**4.6.** BMA, burada aparılan elmi-tədqiqat işlərinin nəticələrinin tədris prosesinə tətbiq edilməsini və monoqrafiyalar, elmi məqalələr, dərsliklər, dərs vəsaitləri, metodik vəsaitlər şəklində dərc olunmaqla və respublika və beynəlxalq miqyaslı elmi və elmi-praktik konfranslar, simpoziumlarda məruzə edilərək yayımlanmasını təşkil edir.

**4.7.** BMA-da aparılan elmi tədqiqat işlərinin nəticələri professor-müəllim heyətinin müəyyən vəzifələrə seçkisi və təyin olunması zamanı nəzərə alınır.

**4.8.** BMA-da elmi araşdırmalar BMA-nın dövlət büdcəsi,qrantlar və özünümaliyyələşdirmə əsasında həyata keçirilir.

**4.9.** BMA-da elmi tədqiqatların əsas məqsədi ali musiqi təhsilində elmi tədqiqatları və tədris prosesini əlaqələndirməkdən, ali musiqi təhsilinin və tədris prosesinin elmi bazasını, elmi-texniki imkanlarını və elmi yönümlülüyünü möhkəmləndirmək və daha da inkişaf etdirməkdən, ali musiqi təhsilinin təşkil və idarə olunmasını təkmilləşdirilməkdən, tədris prosesini müasir metodlarla qurmaqdan, təlim-tədrisin yeni texnologiyalarını və musiqi istiqamətləri üzrə elmi-pedaqoji innovasiyaları hazırlamaqdan və tətbiq etməkdən, müasir fənn proqramlarının, tədris-metodik vəsaitlərin, dərsliklərin işlənilib hazırlanmasından, Azərbaycanda musiqi incəsənətinin, musiqi elminin və təhsilinin beynəlxalq aləmə inteqrasiyasını sürətləndirməkdən ibarətdir.

**4.10.** BMA-da elmi fəaliyyətin istiqamətləri musiqi tarixi və nəzəriyyəsinə, musiqi tədrisinin metodlarına, musiqi tərbiyəsi və pedaqogikasına dair elmi tədqiqatların həyata keçirilməsi, elmi işlərin, dissertasiya işlərinin yazılması, tədrisin keyfiyyətini yüksəltmək məqsədilə elmi-metodik vəsaitlərin, tövsiyələrin, dərs vəsaitlərin, dərsliklərin, müntəxabatların, məqalələr toplularınun, elmi nəşlrərin hazırlanmasından ibarətdir.

**4.10.** BMA-da ictimai əsaslarla Tələbə Elmi Cəmiyyəti fəaliyyət göstərir.
BMA-nın Tələbə Elmi Cəmiyyətinin əsas məqsədi bakalavr və magistr pilləsində təhsil alan tələbələrdə elmə maraq oyatmaq, onların elmi bilik və qabiliyyətini inkişaf etdirməkdən, bu məqsədlə ali məktəb daxilində tələbə elmi konfransları və müsabiqələri təşkil etməkdən, onların respublika və beynəlxalq tələbə elmi konfranslarında iştirakını təmin etməkdən ibarətdir.

## 5. BAKI MUSIQI AKADEMIYASININ IDARƏ OLUNMASI

**5.1.** BMA-nın idarə olunmasında demokratikliyi və şəffaflığı təmin etmək məqsədi ilə burada idarə və özünüidarə orqanları (ümumi yığıncaq,himayəçilər,elmi,elmi-metodiki,pedaqoji,təhsilalanlar,qəyyumlar şuraları və s.) yaradıla bilər.

**5.2.** BMA-nın ali idarəetmə orqanı Elmi Şuradır.Elmi Şura seçkili orqandır, onun yaradılması və fəaliyyəti Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən təsdiq edilən "Ali təhsil müəssisəsinin Elmi Şurası Haqqında Əsasnamə" və BMA-nın Nizamnaməsi ilə tənzimlənir.

**5.3.** BMA-nın fəaliyyətinə bilavasitə rəhbərlik rektor tərəfindən həyata keçirilir. BMA-nın rektoru Azərbaycan Respublikasının Prezidenti tərəfindən təyin olunur və ya vəzifəsindən azad edilir.

Rektor əvəzçiliklə təyin oluna bilməz.

BMA-nın idarə edilməsi ilə bağlı məsələlərə təhsil idarəetmə orqanları istisna olmaqla,dövlət və yerli özünüidarəetmə orqanlarının və digər təşkilatların müdaxiləsinə yol verilmir.

**5.4.** Rektor :

- BMA-nın elm, təlim, tədris, tədqiqat, istehsal, maliyyə, təsərrüfat və digər fəaliyyətinə rəhbərlik edir və bu fəaliyyət üçün tam məsuliyyət daşıyır;
- BMA –nı dövlət orqanları və təşkilatları, digər yerli və beynəlxalq təşkilatlarla münasibətlərdə təmsil edir;
- icrası məcburi olan əmr, sərəncam və digər yazılı göstərişlər verir;
- işçilərlə əmək müqavilələri və digər müqavilələr bağlayır, işçilərin əməyinin ödənilməsini və onların peşəkar inkişafını təşkil edir;
- BMA-nın inzibati-funksional idarəetmə strukturunu və ştat cədvəlini təsdiq edir, prorektorları vəzifəyə təyin edir, dekanları isə Elmi şuranın təqdimatı əsasında vəzifəyə təsdiq edir, işçilərin səlahiyyətlərini müəyyən edir, vəzifə təlimatlarını təsdiq edir;
- struktur bölmələrinin fəaliyyətini,ştat cədvəlini tənzimləyən əsasnamələri və daxili intizam qaydalarını təsdiq edir;
- maddi vəsaitlərin uçotunu təşkil edir, onlardan istifadəyə nəzarət edir, maliyyə və vergi orqanlarına təqdim olunacaq hesabatları imzalayır, öz səlahiyyəti çərçivəsində BMA-nın əmlakına və vəsaitlərinə dair sərəncam verir;
- BMA-nın daimi maliyyə fonduna və onun fəaliyyətinin bütün istiqamətlərinə nəzarət edir;
- BMA-nın beynəlxalq münasibətlərini müəyyən edir, onun təşkilat və birliklərə üzvlüyünə, xaricdəki fəaliyyətinə və ya təmsilçiliyinə nəzarət edir;
- BMA-nın fəaliyyəti ilə bağlı digər məsələləri həll edir.

**5.5.** BMA-da tədris işləri üzrə, elmi-tədqiqat və yaradıcılıq işləri üzrə, beynəlxalq əlaqələr və tərbiyə işləri üzrə, inzibatı-təsərrüfat işləri üzrə prorektorlar rektorun təqdimatı əsasinda Təhsil Nazirliyi tərəfindən təyin olunur.

**5.6.** Tədris işləri üzrə prorektor tədris və tədris metodiki işlərinə bilavasitə rəhbərlik edir, həmin işlər üçün rektor qarşısında cavabdehlik daşıyır.
Fakültə və kafedralarla tədris, metodiki və tərbiyəvi işlərin təşkilinə, ali məktəbin nəşriyyat fəaliyyətinə, kitabxana və digər tədris- köməkçi qurumlarının (tədris emalatxanaları, tədris təsərrüfatları və s.) işinə rəhbərlik, tələbələrin tədris və istehsalat təcrübələrinin keçirilməsinin nəzarət edir, rektor olmayanda onu əvəz edir.

**5.7.** Elmi-tədqiqat və yaradıcılıq işləri üzrə prorektor elmi-metodik və elmi işlərə rəhbərlik edir. O, kafedraların elmi metodiki və elmi tədqiqat işlərinə, elmi konfranslara, doktlrantların elmi işlərinə, elmi kadrların hazırlanmasına və elmi-pedaqoji kadrların ixtisasının artırılmasına nəzarəti təşkil edir, elmi tədqiqat bölməsinə, elmi tədqiqat laboratoriyalarına rəhbərliyi həyata keçirir.

**5.8.** Beynəlxalq əlaqələr və tərbiyə işləri üzrə prorektor ali məktəbin beynəlxalq əlaqələrinin strateji xəttinin müəyyənləşdirilməsi və onun həyata keçirilməsini təmin edir, əcnəbi vətəndaşların mövcud normativ sənədlər əsasında təhsilini təşkil edir, elm, tədris və təhsil sahəsində keçirilməsi nəzərdə tutulan beynəlxalq konfranslar, simpoziumlar və digər toplantılarda professor-müəllim heyətinin iştirakını təmin edir, beynəlxalq səviyyəli tədbirlərdə iştirak etmək üçün elmi-pedaqoji kadrların tərkibinin müəyyənləşdirilməsini, xarici ölkələrin təhsil,elm və sənayə müəssisələri ilə birbaşa ələqələr yaradılması, inkişaf etdirilməsini və həyata keçirilməsini təşkil edir, tələbələrin nizam-intizam qaydalarına riayət edilməsinə nəzarət edir.

**5.9.** Inzibati-təsərrüfat işləri üzrə prorektor BMA-nın təsərrüfat və mədəni-məişət

işlərinə bilavasitə rəhbərlik edir. Ali məktəblərin auditoriyalarında, kabinet və laboratoriyalarında, yeməkxanada sanitar və gigiyenik vəziyyəti və qayda-qanunu təmin edir, tikintiyə, kapital və cari təmirə rəhbərlik edir, tədris binasını, laboratoriyaları, kabinetləri, təsərrüfat və mədəni-məişət müəssisələrini avadanlıqlarla, inventar və materiallarla təmin edir, tələbələrin və professor-müəllimin heyətinin maddi-məişət şəraitinin yaxşılaşdırılması üzrə tədbirlər görür. Rektorun tapşırığı ilə maliyyə-təsərrüfat məsələləri üzrə digər müəssisələrlə müqavilə bağlayır.

**5.10.**Fakültə BMA-nın tədris,elm və inzibati bölməsi olub, eyni sahə və istiqamət daxilindəki bir və ya bir birinə yaxın olan bir neçə ixtisas üzrə bakalavr,magistr hazırlanmasını,müvafiq sahə üzrə mütəxəssislərin (kadrların) ixtisasının artırılması (və yenidən hazırlanması) işini həyata keçirir,eləcə də elmi tədqiqat və tərbiyə işlərinə rəhbərlik edir. BMA-nın fakültələrinə ümumi rəhbərlik – fakültə

Elmi Şurası tərəfindən həyata keçirilir.Fakültə Elmi Şurası rektorun əmrinə əsasən 3 il müddətinə seçilir.Fakültə Elmi Şurasının sədri-dekandır.Fakültə Elmi Şurasının vaxtından əvvəl yenidən seçilməsi onun üzvlərinin ən azı 2/3 hissəsinin tələbi ilə, həmçinin müstəsna hallarda BMA-nın rektorunun təqdimatına görə həyata keçirilə bilər.Fakültə Elmi Şurasının tərkibi rektor tərəfindən təsdiq edilir.Fakültə Elmi Şurasının tərkibi və səlahiyyətləri Təhsil Nazirliyi tərəfindən təsdiq edilmiş qaydalarla tənzimlənir.

**5.11.** BMA-nın fakültələrinə qanunvericilikdə müəyyən edilmiş qaydada bu vəzifəyə təyin olunmuş dekan rəhbərlik edir.

**5.12**. Dekan:

- fakültədə tədris prosesinə, tərbiyə işlərinə və elmi tədqiqatların yerinə yetirilməsinə bilavasitə rəhbərlik edir;
- təhsil proqramlarının və tədris planlarının dövlət təhsil standartının tələblərinə uyğun olaraq keçirilməsini təmin edir;
- tələbələrin dərslərdə iştirakını təmin edir;
- tələbələrin elmi, pedaqoji və istehsalat təcrübəsini həyata keçirilməsi üçün şərait yaradır və onu nəzarətdə saxlayır;
- fakültə üzrə dərs cədvəllərinin tərtibinə rəhbərlik edir, onun optimal variantlarının təmin olunması üçün məsuliyyət daşıyır və həyata keçirilməsinə nəzarət edir;
- tələbələrin müstəqil işlərinə nəzarəti təşkil edir və onların elmi fəaliyyətləri üçün şərait yaradılmasını təmin edir;
- tələbələrin imtahanlarının keçirilməsinə nəzarəti təşkil edir, bütün imtahan sessiyalarının normal, mövcud tələblərə uyğun keçirilməsinə birbaşa cavabdehlik daşıyır;
- tələbələri tələbələr sırasından xaric etmək və bərpa etmək üçün rektora təqdimatlar verir;
- tələbələrin buraxılış dövlət imtahanlarına, buraxılış diplom işlərinin və magistrlik dissertasialarının müdafiəsinə buraxılmasına icazə verir;
- fakültədə dövlət hesabına təhsil alan tələbələri mövcud qaydada təqaüdə təqdim edir;
- fakültədə çalışan professor-müəllim heyətinin ixtisasının artırılması və yenidən hazırlanması işinin həyata keçirilməsinə rəhbərlik edir;
- fakültədə doktorların təhsilinin lazımı səviyyədə təşkil olunmasını təmin edir, onların attestaslyalarını keçirir;
- fakültənin profilinə uyğun dəsrliklərin, dərs vəsaitlərinin, fənn proqramlarının, təhsil normalarının, tədris planlarının, metodik göstərişlərin hazırlanmasına təşəbbüs göstərir və bu işə ümumi rəhbərlik edir;
- kafedralararası müşavirələrin, elmi-metodiki müzakirələrin və konfransların keçirilməsini təşkil edir və onlara rəhbərlik edir;
- ali təhsilin hər üç səviyyəsi üzrə fakültədə hazırlanması mümkün və zəruri olan ixtisasları, ixtisaslaşmaları müəyyənləşdirir, illik və perspektiv qəbul planları üzrə akademiyanın rəhbərinə təkliflər təqdim edir;

- fakültə elmi şurasına rəhbərlik edir;
- müavinlərinin təyin edilməsi üçün təqdimat verir;
- fakültədə olan bütün tədris-köməkçi heyətinin işinə nəzarət edir, onların işə qəbulu və işdən azad olunması, eləcə də həvəsləndirilməsi və cəzalandırılması üçün BMA-nın rəhbərinə təqdimat verir;
- ayrı-ayrı kafedraların tədris yükünün düzğünlüyünü yoxlayıb, onlara rəy verir.

**5.13.** Kafedra fakültənin əsas tədris elm struktur bölməsi olub, bir və ya bir neçə yaxın fənlər üzrə tədris ,metodiki, elmi tədqiqat, elmi-pedaqoji və elmi işçilərin hazırlanması,ixtisaslarının artırılmasını və təhsilalanlar arasında tərbiyə işlərini həyata keçirir.Kafedranın əsas vəzifələri aşağıdkılardır:

- bütün tədris formaları üçün tədris planlarında nəzərdə tutulmuş mühazirələrin,labaratoriya işlərinin,praktiki seminar və digər dərslərin yüksək elmi-nəzəri və metodiki səviyyədə aparılması;

- kurs və buraxılış işlərinə(layihələrinə),istehsalat və digər təcrübələrə,tələbələrin sərbəst dərslərinə rəhbərlik edilməsi;

- cari imtahanların keçirilməsi;

- dövlət imtahanlarının təşkili və keçirilməsi;

- təhsilalanlar arasında tərbiyə işinin təşkili;

- kafedrada tədris edilən fənlər üzrə tədris proqramlarının işlənib hazırlanması və müvafiq qaydada təsdiq üçün təqdim olunması,həmçinin digər kafedraların hazırladıqları tədris proqramlarına rəy verilməsi;

- dərslik,dərs vəsaitləri,metodiki rəhbərlik və göstərişlərin və əyani vəsaitlərin hazırlanması,rektorluğun(fakültənin)göstərişi ilə dərslik,dərs vəsaiti və tədris-metodiki ədəbiyyata rəy verilməsi;

- elmi tədqiqat işlərinin aparılması,tələbələrin elmi tədqiqat işlərinə rəhbərlik edilməsi;

- tamamlanmış elmi tədqiqat işlərinin müzakirəsi,onların istehsalata tətbiq edilməsi və nəşr edilməsi üçün rəy verilməsi;

- kafedra əməkdaşlarının tədris,elmi-metodiki və digər işlərinin fərdi planlarının hazırlanması və həyata keçirilməsi;

- respublikanın və xarici ölkələrinin ali məktəblərinin ayrı-ayrı kafedralarının,professor-müəllim heyətinin qabaqcıl iş təcrübəsinin öyrənilməsi və yayılması, gənc müəllimlərə pedaqoji təcrübə toplamaqda köməklik göstərimәsi;

- tədris prosesində müasir texniki vasitələrdən istifadə edilməsinə dair tədbirlər hazırlanıb həyata keçirilməsi;

- elmi-pedaqoji və elmi kadrların hazırlanması;

- kafedra əməkdaşlarının,həmçinin rektorluğun(fakültənin) tapşırığına əsasən digər iddiaçıların dissertasiyalarının müzakirə edilib rəy verilməsini;

- tədris texnologiyaları üzrə qabaqcıl təcrübənin öyrənilməsi və onlara elmi-texniki köməklik göstərilməi məqsədi ilə müxtəlif müəssisə və təşkilatlarla əlaqələrin təşkil edilməsi;

- müxtəlif sahələrdə çalışan mütəxəssislərin ixtisaslarının artırılmasına köməklik göstərilməsi;

- Akademiyanın məzunları ilə daimi əlaqənin təşkil edilməsi;

- elmi biliklərin təbliğ edilməsi.

5.14. Kafedraya rəhbərliyi qanunvericiliklə müəyyən edilmiş qaydada təyin olunan kafedra müdiri həyata keçirir.
Kafedra müdiri :
- kafedra içlaslarını çağırır, onlara sədrlik edir, onların qərarlarını təsdiq edir;
- kafedranın işini planlaşdırır və təşkil edir, onun fəaliyyətinə rəhbərlik edir;
- hər il kafedranın fəaliyyəti barədə hesabat təqdim edir;
- ayrılmış əməkhaqqı fondu daxilində və kafedranın büdcədənkənar vəsaiti hesabına onun ştat tərkibinə dair təklif verir;
- fakültədə və kənar təşkilatlarda kafedranı təmsil edir;
- kafedra müdirinin müavinləri vəzifələrinə namizədləri təqdim edir;
- kafedranın fəaliyyətinə görə kafedranın kollektivi, fakültə, elmi şura və rəhbərlik qarşısında məsuliyyət daşıyır.

**5.15.** BMA-da elmi-pedaqoji (professor-müəllim heyəti,elmi işçilər),mühəndis-texniki,inzibati,inzibati-təsərrüfat,tədris-köməkçi və digər heyətlət üzrə vəzifələr nəzərdə tutulur.Bu vəzifələrə təyinolunma rektor tərəfindən qanunvericilikdə nəzərdə tutulmuş qaydada həyata keçirilir.

## 6. BAKI MUSİQİ AKADEMİYASINDA TƏHSILALANLARIN, TƏHSİLVERƏNLƏRİN VƏ DİGƏR İŞÇİLƏRİN HÜQUQ VƏ VƏZİFƏLƏRİ

**6.1.** Təhsilalanların və təhsilverənlərin hüquq və vəzifələri müvafiq olaraq Azərbaycan Respublikasının Konstitusiyası,"Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu və digər normativ hüquqi aktlar və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr,BMA-nın

nizamnaməsi və daxili intizam qaydaları, eləcə də işəgötürənlərlə təhsilverənlərin arasında bağlanan əmək müqavilələri ilə tənzimlənir.

**6.2.** Təhsilalanlar aşağıda hüquqlara malikdirlər:

- qanunvericilikdə nəzərdə tutulmuş qaydada BMA-na qəbul olunmaq;
- təhsil müəssəsini,təhsilin istiqamətini, ixtisası,təhsilalma formasını və təhsil dilini sərbəst seçmək;
- dövlət təhsil standartına uyğun keyfiyyətli təhsil almaq;
- BMA-nın tədris planlarına uyğun olaraq tədris fənlərini,semestr üzrə kreditlərin miqdarını,təhsilverənləri və tyutorları sərbəst seçmək;
- BMA-nın mövcud infrastrukturundan ( tədris - istehsalat, elmi -tədqiqat, informasiya, mədəni-məişət, idman mərkəzlərindən, kitabxanalarından və s.) istifadə etmək;
- elmi-tədqiqat fəaliyyətri ilə məşğul olmaq;
- fasiləsiz təhsil almaq;
- sağlamlıq üçün təhlükəsiz və zərərsiz təhsil şəraiti ilə təmin olunmaq;
- fiziki və psixi zorakılığın bütün növlərindən, hüquqa zidd, insan ləyaqəti və şərəfini alçaldan hərəkətlərdən müdafiə olunmaq;
- müəyyən olunmuş qaydada təhsilini müvəqqəti dayandırmaq;
- Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi qaydada biliyinin yenidən qiymətləndirilməsini tələb etmək;
- ali təhsilin hər bir səviyyəsində qanunvericilikdə göstərilən hallar istisna olmaqla yalnız bir dəfə pulsuz təhsil almaq;
- təhsil prosesinin təşkilində və idarə olunmasnda fəal iştirak etmək,öz fikirlərini və mülahizələrini sərbəst ifadə etmək;
- elmi-praktiki konfransların,seminarların,yığıncağların və görüşlərin, habelə təhsil həyatı ilə bağlı digər tədbirlərin keçirilməsində iştirak etmək;
- müvafiq qaydada təhsilin təmayülünü, təhsil proqlamlarını seçmək;
- qanunvericilikdə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

**6.3.** Təhsilalanların vəzifələri aşağıdakılardır:

- dövlət standartına yuğun bilik,bacarıq və vərdişlərə yiyələnmək;
- pedaqoji işçilərin şərəf və ləyaqətinə hörmətlə yanaşmaq;
- təhsil müəssəsinin nizamnaməsinin tələblərinə riayət etmək;
- dövlət,cəmiyyət,ailə və özü qarşısında məsuliyyətini dərk etmək;
- təhsil sahəsində qanunvericiliyin tələblərinə,etik normalara və təlim-tərbiyə prosesi ilə bağlı qaydalara əməl etmək;
- qanunvericilikdə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

**6.4.** Ali təhsil müəssisələrində təhsil qanunvericiliyini pozanlar qanunla müəyyən olunmuş qaydada məsuliyyət daşıyırlar.

**6.5.** BMA-nın pedaqoji işçiləri (təhsilverənləri) aşağıdakı hüquqlara malikdirlər:

- normal əmək, elmi-pedaqoji iş və təhsil şəraiti, muasir standartlara cavab verən texnologiyalarla təmin olunmaq;
- təhsil müəssəsinin nizamnaməsinə uyğun olaraq, təhsil prosesinin təşkilində və idarə olunmasında fəal iştirak etmək;
- tədrisin formasını, metodlarını və vəsaitlərini sərbəst seçmək;
- şərəf və layəqətinə hörmətlə yanaşmağı tələb etmək;
- təhsli müəssəsində vəzifə tutmaq və müvafiq hallarda seçkili vəzifələrə seçmək və seçilmək;
- ixtisasını artırmaq, yeni ixtisas almaq,staj keçmək,ixtisas və elmi dərəcəsini yüksəltmək;
- müəyyən olunmuş qaydada mükafatlandırılmaq və təltif olunmaq;
- ali təhsil müəssəsində uzun illər qüsursuz çalışan və onun elmi-pedaqoji həyatında mühüm xidmətləri olan professorlara aylıq əməkhaqqı və əlavələr, digər güzəştlər və imiyazlar saxlanılmaqla,akademik və inzibati vəzifədən azad olunmaq şərtilə, məsləhətçi-professor vəzifəsini tutmaq;
- qanunvericilikdə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

**6.6.** Təhsilverənlərin vəzifələri aşağıdakılardır:
- Dövlətin təhsil siyasətinin həyata keçirilməsində iştirak etmək;
- təhsil və tərbiyə alanların tədris və araşdırma proqramlarını dövlət standartları səviyyəsində mənimsəmələri üçün şərait yaratmaq;
- əməyi və şəxsi nümunəsi ilə təhsilalanlarda milli və ümumbəşəri sərvətlərə, bütün insanlıq üçün qiymətli olan mənəvi dəyərlərə – həqiqətə, ədalətə, sədaqətə, vətənpərvərliyə, humanizmə, rəhmdilliyə, əməksevərliyə, demokratikliyə, prinsipiallığa və başqa keyfiyyətlərə hörmət və məhəbbət aşılamaq, Azərbaycana və Azərbaycan tarixinə, milli və mədəni dəyərlərinə dərin hörmət hissi yaratmaq və bəsləmək;
- təhsilalanları elmi fəaliyyətə cəlb etmək;
- pedaqoji etika və əxlaq normalarına riayət etmək, müəllim nüfuzunu yüksək tutmaq, ziyalılıq nümunəsi göstərmək;
- gəncləri fiziki və psixi zorakılığın bütün formalarından qorumaq, onları zərərli vərdişlərdən çəkindirmək;
- ixtisas və elmi-pedaqoji səviyyəsini yüksəltmək, elmi araşdırmalar aparmaq, əlavə məşğələlər keçirmək;
- qanunda müəyyən edilmiş qaydada attestasiyadan keçmək;
- qanunvericilikdə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

**6.7.** BMA-da akademik və inzibati vəzifələrin tutulmasının yaş həddi Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilir. Həmin yaş həddinə çatan pedaqoji işçilər akademik və inzubati vəzifə tutmamaq şərtilə,təhsil müəssəsinin tədris və elmi fəalyyətində iştirak edə bilərlər.

**6.8.** BMA-nın inzibatı, inzibati-idarəetmə, inzibati-təsərrüfat, mühəndis-texniki, tədris-köməkçi və digət heyətinin hüquq və vəzifələri müvafiq qanunvericiliklə, nümunəvi Nizamnamə, bu Nizamnamə və daxili nizam-

intizam qaydaları, eləcə də işəgötürənlə təhsilverənlər arasında bağlanan əmək müqavilələri ilə tənzimlənir.

## 7. BAKI MUSİQİ AKADEMİYASININ MALİYYƏ-TƏSƏRRÜFAT FƏALİYYƏTİ

**7.1.** BMA-nın əmlakı dövlət tərəfindən mülkiyyətinə və istifadəsinə verilən,eləcə də qanunvericilikdə qadağan olynmayan fəaliyyəti nəticəsində əldə etdiyi əmlakdan,o cümlədən ona məxsus əqli mülkiyyət məhsillarından ibarətdir.

BMA mülkiyyətində və istifadəsində olan əmlakın saxlanılması,qorunması və ondan səmərəli istifadə edilməsi üçün məsuliyyət daşıyır**.** BMA-nın əmlakının idarə olunması ilə bağlı fəaliyyətinə nəzarəti Rektor həyata keçirir.

BMA-nın maddi texniki bazasının möhkəmləndirilməsi və genişləndirilməsi dövlət büdcəsinin vəsaitləri və büdcədənkənar vəsaitlər hesabına həyata keçirilir.

BMA-nın nizamnaməsində göstərdiyi xidmətlər (tədris,elmi-tədqiqat və digər xidmətlər) nəticəsində daşınan və daşınmaz əmlak,o cümlədən bina,avadanlıq,yeni texnologiya ,nəqliyyat vasitələri və s. əldə edə bilər.

Dövlət mülkiyyətində olan BMA-nın özəlləşdirilməsi qadağandır.

BMA-nın istifadəsinə verilmiş əmlakın geri qaytarılması qanunvericiliklə tənzimlənir.

BMA büdcədənkənar mənbələdən daxil olan vəsaitlər hesabına əldə etdiyi əmlak qanunvericiliyə uyğun olaraq onun mülkiyyətinə daxil edilir.

**7.2** BMA-sı mövcud qanunvericilik çərçivəsində öz nizamnaməsi ilə müəyyən edilmiş qaydada fiziki və hüquqi şəxslərə müxtəlif ödənişli təhsil xidmətləri göstərmək ,sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq,hüquqi və fiziki şəxslərdən ianələr və könüllü yardımlar almaq hüququna malikdir.Bu mənbələrdən əldə olunan vəsait və digər əmlak BMA-na büdcədən ayrılan vəsaitlərin miqdarına təsir göstərmir və onun nizamnaməsinə uyğun olaraq Azərbaycan Respublikası Təhsil Nazirliyi ilə razılaşdırmaqla istifadə edilir.

BMA-nın əldə etdiyi mənfəət yalnız təhsilin inkişafına,təhsilalanların və təhsilverənlərin sosial müdafiəsinə yönəldilə bilər.

BMA-nın maliyyələşdirilməsi təhsilin hər səviyyəsi üzrə müəyyən edilmiş maliyyə normativlərinə əsasən həyata keçirilir.Bu normativlər təhsil müəsisəsinin növünə və kateqoriyasına yuğun olaraq,"Ali təhsil müəsisələrində yeni maliyyələşmə mexanizminin tətbiq edilməsi haqqında " Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-cu il 25 iyun tarixli 120 nömrəli qərarına əsasən hər bir təhsilalana düşən məsrəf məbləği nəzər alınmaqla müyyən edilir.

BMA-nın əldə etdiyi gəlir və vəsaitlər elmin və təhsilin inkişafına, daimi maliyyə fondunun, kitabxana vəsaitlərinin yaradılmasına, təqaüd şəklində tələbələrə ayrılan maddi yardıma, elmi-pedaqoji və inzibati kadrların professional inkişafına və onların maddi həvəsləndirilməsinə yönəldilir.

BMA-nın inkişafına ,təhsilalanların təhsil haqqının vətəhsillə bağlı xərclərinin ödənilməsinə uzunmüddətli və fərdi kreditlərin verilməsini, elmi tədqiqat işlərinin aparılması,doktorantura proqramlarının maliyyələşdirilməsi,beynəlxalq tcrübənin öyrənilməsi və digər məqsədlər üçün müvafiq qaydada qrantlar ayrılmasını təmin edir.Kreditlərin və qrantların verilməsi qaydaları və şərtləri müvafiq qanunvericilim aktları ilə müəyyən edilir. Dövlət təhsil və elmi tədqiqat üzrə qrantlar BMA-nın digər fəaliyyət sahələrinin maliyyələşdirilməsinə yönəldilə bilməz.

Dövlət təhsil sahəsinə investisiyaların , o cümlədən xarici investisiyaların cəlb edilməsi məqsədi ilə əlverişli investisiya mühitinin yaradılmasını təmin edir və bu məqsədlə sərmayəçilərə qanunvericilikdə müəyyən edilmiş qaydada güzəştlər edir.

**7.3.** BMA aşağıdakı mənbələrdən maliyyələşdirilir:

- dövlət vəsaiti;
- ödənişli təhsildən əldə olunan vəsait;
- hüquqi və fiziki şəxslərin ,o cümlədən əcnəbilərin və vətandaşlığı olmayan şəxslərin,xarici hüquqi şəxslərin qanunvericiliyə uyğun olaraq verilən qrantları,vəsiyyət olunan vəsaitləri,ianələri və yardımları;
- müsabiqə yolu dövlət tərəfindən ayrılan elmi tədqiqat qrantları;
- BMA-nın təhsil,elm,istehsalat,məsləhət(konsaltinq) və qanunvericilikdə müəyyən edilmiş digər xidmətlərindən əldə etdiyi vəsaitlər;
- dövlət orqanları tərəfindən maliyyələşdirilən məqsədli proqramlar və layihələr üzrə əldə olunan vəsaitlər;
- BMA-nın mülkiyyətində olan fiziki və mənəvi cəhətdən köhnəlmiş avadanlığın,nəqliyyat vasitələrinin və təhsil məqsədlıri üçün yararsız olan əmlakın satışından qanunvericiliyə uyğun olaraq əldə edilən vəsaitlər;
- BMA-nın beynəlxalq əməkdaşlıq nəticəsində qanunvericilıiyə uyğun olaraq əldə etdiyi qrantlar və vəsaitlər;
- qanunvericilikdə qadağan edilməyən digər mənbələrdən əldə olunan vəsaitlər.

**7.4** BMA əlavə gəlir əldə etmək məqsədi ilə nizamnaməsində nəzərdə tutulmuş qaydada "Təhsil müəssisəsinin əlavə gəlir əldə etmək məqsədi ilə məşğul olmasına yol verilən sahibkarlıq fəaliyyəti növlərinin müəyyən edilməsi haqqında "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 19 yanvar tarixli 10

nömrəli qərarı ulə müəyyən edilmiş sahibkarlıq fəaliyyəti növləri ilə məşğul ola bilər.

**7.5.** BMA bilavasitə mənfəət əldə etmək məqsədi güdmür.

## 8. BMA-NIN TƏHSİL SAHƏSİNDƏ BEYNƏLXALQ ƏLAQƏLƏRİ

**8.1.** BMA-nın xarici əlaqələri və beynəlxalq əməkdaşlığı Azərbaycan Respublikası qanunvericiliyi əsasında həyata keçirilir.

**8.2.** BMA-da tədris prosesi Avropa Kredit Transfer Sisteminə uyğun olan kredit sistemi əsasında təşkil edilir.Kredit sistei üzrə tədrisin təşkili qaydaları Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilir.

**8.3.** BMA qanunvericiliyə və özünün fəaliyyət xüsusiyyətlərinə uyğun olaraq xarici ölkələrin elm və təhsil müəssisələri,təşkilatlar,beynəlxalq qurumlar və fondlarla birbaşa əlaqələr yarada,əməkdaşlıq haqqında ikitərəfli və çoxtərəfli müqavilələr bağlaya,təhsil sahəsində fəaliyyət göstərən dövlət və qeyri-hökümət qurumlarına (ittifaqlar,birliklər,assosiasiyalar və s.) daxil ola və əməkdaşlığın digər formalarını həyata keçirə bilər.

**8.**4.BMA beynəlxalq səviyyəli birgə elm və təhsil layihələinin hazırlanması,fundamental elmi tədqiqat və layihə-konstruktor işlərinin,elmi-praktik konfransların,simpoziumların keçirilməsi,tələbələrin,magistrlərin, doktorantların,müəllimlərin və elmi işçilərin mübadiləsi,iddia sənədi,patent və ya onlarla bağlı hüquqların özgəninkiləşdirilməsi və bu qəbildən olan digər fəaliyyətlə müvafiq normativ hüquqi aktlarla müəyyən edilmiş qaydada müstəqil məşğul olmaq hüququna malikdir.

**8.5.** BMA-nın fəaliyyətinin keyfiyyətini yüksəltmək və beynəlxalq əlaqələrini genişləndirmək məqsədi ilə Azərbaycan Respublikasının mövcud normativ hüquqi aktlarının tələblərinə riayət etməklə,bu Nizamnaməyə uyğun,müstəqil olaraq xarici tərəfdaşlarla bilrlikdə ölkə daxilində və xarici dövlətlərdə müştərək struktur bölmələri (mərkəzlər,filiallar,labaratoriyalar,texnoparklar və s.) yaratmaq hüququ vardır.

## 9.Yekun müddəalar

**9.1.** Bu Nizamnamə Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən təsdiq edilir və Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən qeydiyyata alındığı tarixdən qüvvəyə minir.

**9.2.**Gələcəkdə bu Nizamnamənin hər hansı bir müddəası mövcud qanunvericiliklə ziddiyyət təşkil edərsə,qanunvericilik müddəası tətbiq olunur.

**9.3.**BMA-nın fəaliyyəti ancaq təsisçinin qərarı ilə dayandırıla və ya ləğv edilə bilər.